# QENDER QİYMƏTVERMƏLƏRİ VƏ PLANLAŞDIRMA

Bu fəsil qender planlaşdırmasında və inkişaf prosesində yaxud humanitar yardım göstərilməsində çox vacib olan qiymətvermə və təhlil probleminə həsr olunur. Ona dünyanın müxtəlif guşələrində təşkilatlar və mütəxəssislər tərəfindən işlənib hazırlanmış bir sıra analitik sistemlər daxildir. Onların hamısı istər bütövlükdə vəziyyəti ya layihələri, istərsə də hər hansı bir mərhələdə qender tələbatlarına qiymətvermə vasitələridirlər. Bu fəsil iki hissəyə bölünür:

*Analitik sistemlər;*
*Praktiki misallar.*

**Analitik sistemlər**
«Qender və İnkişaf» üzrə analitik vasitələr toplusu bu fəsillə bitir: burada Oksfam xətti ilə keçirilmiş və qender təlimində istifadə olunmuş bir sıra analitik sistemlər təqdim edilir.
Qeyd etmək vacibdir ki, qısa qender təlimi çərçivəsində siz analitik sistem haqqında yalnız ümumi məlumat verə, onu praktiki misalların analizində nümayiş etdirə bilərsiniz. Bu sistemləri mənimsəmiş iştirakçılar onların tətbiqi zamanı özlərini tamamilə rahat hiss etdiklərini və onların öz tələbatlarına uyğun gəldiklərini yəqin etməyincə bu sistemlərdən istifadə etməli, konkret vəziyyətlərdə təcrübə keçməlidirlər. Bir təlim dövründə həddən artıq sistem öyrənməyə çalışmaq məqsədəuyğun deyildir, yaxşı olar ki, onlardan qrupa uyğun gələnlərdən bir-ikisini seçib, onları iştirakçılara dərindən öyrətmək üzərində səylərinizi cəmləşdirəsiniz.
Aşağıda qısaca olaraq bir neçə sistem təqdim olunur, onların güclü və zəif cəhətləri göstərilir:

## HARVARD ANALİTİK SİSTEMİ

Bu sistem layihə təhlili prosesində qadınların birləşməsinə kömək etmək üçün 1980-cı illərdə Harvard Beynəlxalq Əlaqələr İnstitutunda işlənib hazırlanmışdır. Bu sitstem, Keterin Overxolt, Meri B. Anderson, Ketlin Klaud və Ceymson İ. Oustin tərəfindən buraxılmış «Qenderin inkişaf prosesində rolu» adlı kitabda göstərilmişdir. Burada göstərilən dəlillərin alınması, qadınların və kişilərin cəmiyyətdə rolunun anlayışı və inkişafın planlaşdırılmasına təsir edən xarici amillərin nəzərə alınması üçün faydalı bir kitabdır. Bu kitab, planlaşdırma və təhlilin müxtəlif səviyyələrində istifadə oluna bilən və həmçinin mədəni, etnik, iqtisadi amillərlə yanaşı, qender və yaş amilləri üzrə məlumatın təsnifatı üçün də işlənə bilən elastik alətdir. Bu sistem, həmçinin layihə proqramlarının planlaşdırılması və həyata keçirilməsində köməkli bir vasitə kimi də istifadə oluna bilər.
Sistem 4 qarşılıqlı komponentdən ibarətdir:

- **Fəaliyyət növü**. Bu komponent qender əmək bölgüsü və layihə sahəsində əhalinin iqtisadi fəaliyyət növlərinin əks edilməsi üzrə əsaslanır. Sözü gedən sistem cinsi, yaş və başqa amillər üzrə təsnif edilən məlumatın konkret fəaliyyət növünə sərf edilən vaxtın hesaba alınmasından və bu fəaliyyət növünün həyata keçirilməsindən (bax cədvəl № 1) ibarətdir.
- **Müdaxilə və nəzarət.** Bu komponent işin həyata keçirilməsi üçün insanlara məxsus olan ehtiyatları və bu fəaliyyətdən aldıqları gəlirləri təyin edir. Ehtiyatlara, nəticələrə və onlara nəzarətə daxil olanı ayırmaq yolu ilə cəmiyyət üzvlərinin və iqtisadiyyatın potensialını müvafiq olaraq dəyərləndirmək olar (bax cədvəl № 2).
- **Əmək fəaliyyətinə, müdaxiləyə və nəzarətə təsir edici amillər**: müxtəlif imkanlar yaradan və qadın və kişilərin inkişafda iştirakına təsir edən amillər (qender əmək bölgüsü, mədəni dəyərlər). Bu təhlildə, genişlənən mədəni və

iqtisadi mühitdə olan müvafiq vaxt dövrünün dəyişikliklərinin nəticələri nəzərə alınmalıdır.

- **Layihə mərhələlərinin təhlili**. Məlumatın və sosial dəyişikliklərin qender təsnifatı nöqteyi-nəzərindən, bu layihə təkliflərinin və yaxud nüfuz dairəsinin tədqiq edilməsindən ibarət klmponentdir.

Təsiredici amillər siyasi, iqtisadi, mədəni, hüquqi və beynəlxalq amilləri əhatə edə bilər.

Cədvəlin istifadəsi üzrə qeyd: «Fəaliyyət növləri» cədvəli, kənd təsərrüfatı və ya məşğulluqla bağlı məhsuldar fəaliyyət növlərinə olan bölgünü və həmçinin, ayrı-ayrı fəaliyyət növlərinin mövcud olduğu yerin adı altında sadalanmasını əvvəlcədən nəzərə alır. Vəziyyətin xüsusiyyətindən asılı olaraq, burada böyük təsnifat siyahısı ola bilər. 2 rəqəmi altında reproduktiv fəaliyyət növləri sadalanır. Bunlar su, yanacaq, xırda buynuzlu heyvan, uşaqlara qayğı və s. ilə bağlı fəaliyyət növləri ola bilər.

**Cədvəl 1 – Fəaliyyət növləri**

| Sosial – iqtisadi fəaliyyət növü | **Qender / Yaş** | | | | | | **Müd-dət** | Yer |
|---|---|---|---|---|---|---|---|---|
| | **Y.Q.** | **Y.K.** | **Q.** | **O.** | **A.Q.** | **A.K.** | | |
| 1. Mal və xidmətlərin istehsalı | | | | | | | | |
| a. Mal və xidmətlər | | | | | | | | |
| 1. Konkret fəaliyyət növü<br>2. Konkret fəaliyyət növü<br>3. Konkret fəaliyyət növü | | | | | | | | |
| b. Mal və xidmətlər | | | | | | | | |
| 1. Konkret fəaliyyət növü<br>2. Konkret fəaliyyət növü<br>3. Konkret fəaliyyət növü | | | | | | | | |
| 2. Reproduktiv fəaliyyət və insan ehtiyatlarının idarə olunması | | | | | | | | |
| a. Mal və xidmətlər | | | | | | | | |
| 1. Konkret fəaliyyət növü<br>2. Konkret fəaliyyət növü<br>3. Konkret fəaliyyət növü | | | | | | | | |
| b. Mal və xidmətlər | | | | | | | | |
| 1. Konkret fəaliyyət növü<br>2. Konkret fəaliyyət növü | | | | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 3. Konkret fəaliyyət növü<br>4. Konkret fəaliyyət növü<br>5. Konkret fəaliyyət növü | | | | | | | | |

Şərti işarələr:

Y.Q. – yaşlı qadınlar, Y.K. – yaşlı kişilər, G. – gızlar, O. – oğlanlar, A.Q. – ahıl qadınlar, A.K. – ahıl kişilər.
Müddət – fəaliyyət növünün hər birinə sərf olunan vaxt müddəti: mövsümi və gündəlik.
Yer – işin yerinə yetirildiyi yer: ev şəraitində, ailədə, tarlada və ya mağazada, yaşayış yeri ərazisində (icmada), yaşayış yeri ərazisindən kənarda (icmadan kənarda).

**Cədvəl 2. İmkan və nəzarət**

| Ehtiyatlar | **İmkanlar** | | **Nəzarət** | |
|---|---|---|---|---|
| | **Qadınlar** | **Kişilər** | **Qadınlar** | **Kişilər** |
| Torpaq | | | | |
| Avadanlıq | | | | |
| Əmək:<br>Produktiv<br>Reproduktiv | | | | |
| Kapital | | | | |
| Təhsil / Hazırlıq | | | | |
| | | | | |
| Gəlirlər | **İmkanlar** | | **Nəzarət** | |
| | **Qadınlar** | **Kişilər** | **Qadınlar** | **Kişilər** |
| Kənardan gəlirlər | | | | |
| Mülkiyyət | | | | |
| Mal şəklində<br>(ərzaq, geyim, yaşayış yeri və s.) | | | | |
| Təhsil | | | | |
| Siyasi hakimiyyət / Nüfuz | | | | |
| Sair | | | | |

## İNSANLARA YÖNƏLDİLMİŞ ANALİTİK SİSTEM

Qaçqınlarla bağlı hallarda, insanlara yönəldilmiş Planlaşdırma Sistemi Meri B. Anderson və Qaçqınlarla bağlı İşlər Üzrə Ali Komisarlığın Qaçqın Qadınlar İşləri üzrə Baş Əlaqələndiricisi (UNHCR) tərəfindən təklif edilmiş və bütün proqramlarda qaçqın qadınların ehtiyatlara müdaxilənin və iştirakın genişlənməsinə çağıran, qaçqın qadınlara aid olan siyasət kimi UNHCR tərəfindən təsdiq edilmişdir. Bu sistem, Harvard Analitik Sisteminə əsaslanır və praktiki planlaşdırma vasitəsi kimi qaçqın qadınlar üçün nəzərədə tutulmuşdur. Qaçqınlar mühitində çox kəskin çıxış edən iki əsas ünsürləri qeyd etmək olar (bütün insanlar üçün ümumi ancaq qadınlar üçün xüsusən vacib): dəyişikliklər və müdafiə. İnsanlar fəlakət və münaqişə şəraitində yaşayarkən, onların həyatı sürətlə və dramatik dəyişir. Hətta qadın və kişilərin rolu sabitləşən qaçqınlar üçün olan çoxillik düşərgələrdə, bu rollar, bura köçməzdən əvvəl olan rollardan fərqlənir, və

onlar qaçqınlar tərəfindən müvəqqəti kimi qəbul edilə bilər. Müdafiə, həm hüquqi həm də sosial aspekt daşıyır. Qaçqınlar, onlara hər hansı bir müdafiəni təmin edə bilən milli statusu (vətəndaşlıq) və sosial quruluşunu itirmişlər. Bu problemlər qadın və kişilər üçün müxtəlifdir və hazırki sistem bu fərqləri təyin etmək üçün kömək etməlidir.
Sistem 3 komponentdən ibarətdir:

- **Fəaliyyətin təhlili**: köçmə nəticəsində qender əmək bölgüsünün dağılmasını nəzərə alaraq, qadın və kişilərin köçməzdən əvvəl olan rollarının necə olduğunu, onların qadın və kişi qaçqınları üçün necə dəyişməsini üzə çıxarmaq vacibdir. Hüquqi, sosial və fərdi mydafiə həlledici rol oynayır və əsasən də qadın və qızlara aid məsələlərdə xüsusən qeyd edilməlidir (bax cədvəl № 3).

- **Ehtiyatların İstifadəsi və İdarə edilməsinin** Təhlili: həm köçməzdən əvvəl kişi və qadın tərəfindən istifadə edilmiş və idarəedilmiş həm də qaçqın oldunqdan sonra necə idarə etdikləri ehtiyatlar üzrə əldə edilən məlumatı özündə cəmləşdirir. Qadın və kişilər onların əvvəlki yaşayış yerində olan ehtiyatlara nəzarəti həmişəlik və tam şəkildə itirə bilərlər. Yeni vəziyyət qender əlaqələrinə təsir edir və qadınların vəziyyətində müsbət dəyişikliklər üçün imkan yarada bilər.

- **Həlldedici amillərin təhlili**: bu amillər həm qaçqın mühitində, həm də onları qəbul edən ölkə tərəfindən rollara, qadın və kişilərin vəzifələrinə təsir edirlər və ehtiyatların istifadəsi və idarəedilməsi ilə bağlı vəziyyəti dəyişirlər. Onlar iqtisadi və demoqrafik amilləri, institutlaşmış strukturu qaçqın mühitində və qəbul edən ölkənin əhalisi arasında sosial-iqtisadi amilləri, hüquqi amilləri, beynəlxalq siyasi hadisələri və tendensiyaları daxil edir. Bu faktorlar planlaşdırma prosesində nəzərə alınması vacib olan xarici imkanları və maneələri təyin etməyə kömək edir.

**Cədvəl 3. Fəaliyyətin təhlili**

**Həm köçürülmədən əvvəlki, həm də hazırki vəziyyət üçün doldurulur**

| Fəaliyyət növləri | Kim | Harada | Nə vaxt / Hansı müddətdə | İstifadə olunmuş ehtiyatlar |
|---|---|---|---|---|
| Müdafiə | | | | |
| **Mal istehsalı**<br>Məsələn, dülgərlik<br>dəmirçilik | | | | |
| **Xidmət istehsalı**<br>Məsələn, ev şəraitində işlərin görülməsi | | | | |
| **Kənd təsərrüfatı**<br>Məsələn, torpağın şumlanması, əkin mal-qaraya baxılması | | | | |
| **Ev təsərrüfatının aparılması**<br>Məsələn, uşaqlara baxılması<br>Həyətyanı sahə<br>Su tədarükü | | | | |
| **Sosial / siyasi / dini** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| Məsələn, icma toplantıları<br>mərasimlər | | | | |

Cədvəl 4. Ehtiyatların istifadəsi və onlara dair sərəncam verilməsi

| İtirilmiş<br>Ehtiyatlar | Kimlər istifadə edirdi? | | Kim sərəncam verirdi ? | |
|---|---|---|---|---|
| | Qadınlar | Kişilər | Qadınlar | Kişilər |
| Torpaq | | | | |
| Mal-qara | | | | |
| Yaşayış yeri | | | | |
| Əmək vasitələri | | | | |
| Təhsil sistemi | | | | |
| Səhiyyə | | | | |
| Gəlir | | | | |
| | | | | |
| Qaçqın və köçkünlər tərəfindən gətirilmiş<br>Ehtiyatlar | Kimlərə məxsusdur? | | Kimlər istifadə edir? | |
| | Qadınlar | Kişilər | Qadınlar | Kişilər |
| *Bacarıqlar*<br>Məsələn, siayasi<br>sahibkarlıq<br>dülgərlik<br>dərzilik<br>kənd təsərrüfatçılığı<br>mal-qaraya baxmaq | | | | |
| *Biliklər*<br>Məsələn, savadlılıq<br>təhsil<br>səhiyyə / sağlamlıq | | | | |
| | | | | |
| Qaçqın və köçkünlərə təqdim olunmuş<br>Ehtiyatlar | Kimlər üçün nəzərdə tutulur? | | Kimlərə təqdim olunmuşdur? | |
| | Qadınlar | Kişilər | Qadınlar | Kişilər |
| Ərzaq məhsulalrı pitaniə<br>Yaşayış yeri<br>Geyim<br>Təhsil<br>Hüquqi xidmətlər<br>Səhiyyə xidmətləri | | | | |
| *Biliklər*<br>məsələn, savadlılıq<br>təhsil<br>səhiyyə / sağlamlıq | | | | |

# HƏLLEDİCİ AMİLLƏRİN TƏHLİLİ

Analitik sistemin sonuncu mərhələsi həlledici amillərin təhlilindən ibarətdir. Bu faktorlar qaçqınların icmasında və onları qəbul edən ölkədə rollara və vəzifələrə təyin edən və yaxud onlara təsir edən amillər olmaqla yanaşı, ehtiyatların (qadın və kişi) istifadəsinə, və nəticədə bu amilləri planlaşdırılan fəaliyyətə təsir edə bilər. Onlar müxtəlifdir və aşağıdakı amilləri əhatə edirlər:

- Ümumi iqtisadi şərtlər, həmçinin yoxsulluq səviyyəsi, inflyasiyanın səviyyəsi, gəlirin bölüşdürülməsi, beynəlxalq ticarətin şərtləri, infrastruktur;
- İnstitutlaşmış struktur və biliyin, texnologiyanın və qavramanın dəyişdirilməsi və yayılması üçün dövlət idarəedilməsinin xüsusiyyəti və şərtləri;
- Demoqrafik amillər;
- İctimai əxlaq normaları və sosial iyerarxiya, məsələn, ailədə və cəmiyyətdə hakimiyyətçilik strukturu, dini normalar.
- Bu əsasən qadın və kişilərin rolu dəyişən qaçqınların icmasında çox vacib ola bilər;
- Hüquqi şərtlər (hüquqi mühit);
- Təlim və təhsil;
- Siyasi hadisələr: xarici və daxili;
- Qaçqınlara milli münasibət;
- Qaçqınların yardımetmə inkişafı prosesində iştirak edən mütəxəssislərə münasibəti.

Bu təhlil üçün heç bir cədvəl verilmir, çünki məqsəd bu həlledici amillərin təyinindən, onların hansının və necə təsir etməsindən ibarətdir. Bu, həmçinin Sizin proqramlarınızın planlaşdırılmasında nəzərə almanız gərək olan xarici maneələr və imkanları üzə çıxarmağa kömək etməklə yanaşı, bu sizin proqramlarınızın nəticələrini nəzərə alıb, əvvəlcədən təyin edilməsinə kömək edəcək.